**Mənzər Niyarlı**

# BİZ ŞUŞAYA GEDİRİK!

Şuşaya? Doğrudan? Nə vaxt? Aprelin 12-də, Həftənin ikinci günü. Sevincdən gözlərim yaşardı. Demək, 30 ilin həsrətinə son qoyacağıq. Ədəbiyyat İnstitutunun bir qrup alimlərinə verilən bu xəbərə görə hamının üzündə bir sevinc hissi yaşanır. Mənim kimi. Ürəyimdə direktorumuz İsa Həbibbəyliyə, institutun rəhbərliyinə təşəkkür hissi keçirə-keçirə yola hazırlaşıram.




Şuşaya? Adını eşidəndə qəlbimizi titrədən Şuşamız. Azərbaycanın incisi Şuşamız!

Həmin gün Şuşada nəğməkar şairəmiz Xurşidbanu Natəvanın 190 illik yubileyi münasibətilə heykəlinin qabağında kiçik bir sessiyada da keçiriləcəkdi.

Tez-tez eşidirdik ki, Şuşada abadlıq işləri gedir. Televiziyada dağılmış abidələrlə, baxımsız evlərlə yanaşı Natəvanın , Bülbülün, Vaqifin, Üzeyir Hacıbəyovun heykəllərinin Gövhər Ağa məscidinin bərpa edildiyini, Natəvanın evinin tikintisinə başladıqlarını görürdük.

Nə gözəl gündür. Bahar fəsli. Biz Şuşaya gedirik. Həsrətində olduğumuz «Biz Şuşaya gedirik» cümləsini yaxınlarımın yanında təkrar edirəm. Onların üzündəki qibtə, heyrət hissini görmək üçün.

Rəfiqələrimdən biri heyranlıqla deyir: - Mənim üçün Şuşanın Xarı bülbülündən gətirərsən . Yaxşımı?

Hələ tezdir Xarı bülbülün çıxmağına. Ancaq özümü sındırmıram: - Dərib gətirərəm, – deyirəm.

Çox qəribədir heç kəs «Şuşadan torpaq gətir demir». Təbrizin torpağından istəyirlər, ancaq Şuşanınkını yox. Məlum məsələdir. Axı Şuşamızın torpağı vətən torpağına qarışıb. Gətirməyə nə ehtiyac.

Səhər saat 5-də Elmlər Akademiyasının qabağında bizə ayrılan avtobusa minib yola düşürük.

Hamımız Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşları olduğu üçün bir-birimizlə söhbətə, ünsiyyətə tez qoşulduq.

İlk söhbətimiz keçmişlə – 90-cı illərdə baş verən hadisələrlə bağlı olur. Acı xatirələri unutmaqmı olar?  30 il bundan qabaqkı faciələr, ürəyimizin başını ağrıdan Qarabağın işğalı, erməni vəhşilikləri, soyqırımlar, viran qoyulmuş şəhər və kəndlərimiz yadımıza düşdükcə sarsılırıq.

Dan yeri yavaş-yavaş sökülür. Hava açılır. Biz artıq Salyan şəhərinə yaxınlaşırıq. Salyanı keçəndən sonra Biləsuvarın kəndlərini görürük. Qabaq cərgədə oturmuş İslam Qəribli köksünü ötürür: - O günlər bir daha gəlməsin. Sovet dövründə Biləsuvarda ruslar tərəfindən sərhəd məntəqəsi qurulardı. Bizi icazəsiz rayonumuza buraxmırdılar. Gərək icazə kağızımız olaydı. Evimizə getmək üçün saatlarla yolda qalardıq.

Qurban Bayramov: - Təkcə Biləsuvarda yox, bütün sərhəd rayonlarında bu hadisə ilə üzləşərdik.

Esmira Fuad:  - Rus başımızın ağasıydı da. Allaha şükür, axır ki, müstəqilliyimizi qazandıq.

Fəridə Hicran doğma Ağdamı, evləri yadına düşdüyü üçün qəzəbindən ağlamaq istəyir. Horadizə yaxınlaşırıq. Füzulinin Horadiz kəndinə.

Mərziyyə Nəcəfova: - Horadizin yarısını düşmənlər almışdılar. O vaxtlar ordumuzun qanı bahasına  təzədən geri alındı.

Horadizdə həyat qaynayır. Səliqəli, bir, iki mərtəbəli evlər, təmiz, güllü, çiçəkli küçələr. Qoyun, quzu, toyuq-cücə ot tayalarının yanında görünürlər. Əhali iş-güclərində idi. Yer şumlayırdılar, təsərrüfat işləri ilə məşğul idilər. Horadizi də keçirik. Birdən qarşımızda iri hərflərlə yazılmış lövhə görünür. İşğal olunmuş və azad edilmin torpaqlar».

Füzulinin işğal olunmuş torpağına daxil oluruq. Elə bil bu torpaqlarda heç bir yaşayıış yeri olmayıb, insan yaşamayıb. Yolun hər iki tərəfində qapısı, pəncərəsi, üst tavanı, döşəməsi soyulmuş daş yığnaqları idi. Ev, daşlarını, görünür, qopara bilmədikləri üçün sınıq, salxaq vəziyyətdə dururdu. Füzulidən köçkün düşən, evlərindən bircə əşya da apara bilməyən laborant Suğra xanım bizə tapşırmışdı ki, mənim viran qalan yurdumu – kəndimi də telefonla çəkərsiniz. Bəlkə evimizə toxunmayıblar. Görən kimi, vallah, tanıyaram.

Qurban Bayramov Fəridə Hicrandan kəndin adını soruşur.

Fəridə Hicran: - Seyid Mahmudludur adı. - Sürücünün qulağı söhbəti alır.

- Qabaqdadır, çatanda göstərərəm.

Avtobusun pəncərəsindən ermənilərin dağıtdığı, səhraya bənzəyən kəndlərimizə baxa-baxa ürəyimiz qan ağlayır.

Ruhəngiz Əliyeva: - Buralar 30 il bundan qabaq gözəl, səfalı kənd idi. Əhali öz halal zəhmətləri ilə bağlı-bağatlı ev-eşik qurmuşdular. Erməni vəhşiləri torpaq qədri bilən idilər ki? Bilsəydilər burda işğal etdikləri torpaqlarda gəlib yaşayardılar da.

Fəridə Hicran: - İndi görəcəksiniz. Heç Şuşanın özündə abadlıq işləri aparılmayıb. Tarixi abidələrimizi, görkəmli şəxsiyyətlərimizin evlərini dağıtmaqla məşğul olublar.

Mərziyə Nəcəfova: - Dağıtmaqda qoçaqdırlar, qaniçənlər. Ermənidən soruşmaq lazımdır: - Şuşa, Şuşa deyib durursuz ha, bəs onda Şuşanın qədrini niyə bilmirdiniz? Orda da evlərimizi tar-mar edibsiniz. Sürücü arxaya baxmadan: - Seyid Mahmudluya giririk –səslənir. Buraya da kənd demək olmazdı. Viran qoyulmuş düzənlik idi. Adda-budda, ağacsız evlərin yeri görünürdü. Kəndin qəbirstanlığı yolun qırağında yerləşdiyi üçün uçurulmuş, böyrü üstə aşırılmış qəbirlərin baş daşlarını görəndə düşmənə lənət oxuduq. Qan təzyiqi yüksək olan Zakirə Əliyeva bu dağılmış kəndlərimizi görüncə halbahal olur. Deyəsən təzyiqi artır. Dərman verib sakitləşdiririk. Cavanşir Yusifli gözlərini yoldan çəkmədən: - Müharibədə ən ağır döyüş bu kənddə olub. Seyid Mahmudlu kəndində, Suğra xanımgilin kəndində.

Bədirxan Əhmədli: - Düz bir aydan çox çəkib bu kəndi almağımız. Oranı azad etməklə ermənilərin belini qırdıq. Ancaq çox şəhid verdik. Hamının üzünə bir kədər çökür: - Allah bütün şəhidlərimizə rəhmət eləsin.

İbrahim Yusifoğlu: - Onların yeri cənnətlikdir - deyə pıçıldayır. - O gördüyümüz yerlərdə qan töküblər. Bizim azad, rahat yaşamağımız üçün.

Uzaqdan Füzulidə tikilmiş nəhəng aeroportu görürük. Füzuli hava limanı öz müasirliyi, əzəməti ilə qarşımıza çıxır.

Eşqanə Babayeva heyrətini gizlətmədən : - Nə gözəldir, - deyir.

Yoldan xeyli uzaqda təpənin üstündə Daş karxanası, sonra yol boyu viran qalmış kəndlərin indi-indi dirçələn meşələrində çiçəklənən alça, gilas, gilənar ağacları üzümüzə gülür. Bir azdan hamısı bar gətirəcək.

Xarabaqlıqlara çevrilmiş kəndin adda-budda görünən evlərinin topa-topa daş yığınağı ilə təbiətin qoruyub saxladığı indi yaz fəslində yaşıllaşan, çiçək açan ağacların arasında bir təzadlıq var. Bu iki mənzərəyə baxdıqca gah qəlbimiz qan ağlayır, gah da təbiətin bu möcüzəsindən riqqətə gəlirdik.

Avtobus dolanbac, aşırım yollarla dağın başına – yuxarıya, həsrətində olduğumuz Şuşaya doğru irəliləyir. Dəniz səviyyəsindən 1300 metr hündürlükdə Şuşamıza qalxdıqca gözümüz lap uca zirvədə görünən üç rəngli bayrağımıza dikilir.

Günay Qarayeva: - Baxın, qızlar, deyir. Şuşamız orda yerləşir. 270 illik yubileyinə hazırlaşdığımız Qarabağ hökmdarı Pənahəli xan Şuşanı texnikanın, maşının olmadığı vaxt necə yaradıb? Alınmaz qalamızın əzəmətli, vüqarlı görünür.

Gülbəniz Babayeva Şuşa haqqında televiziyada tez-tez səslənən mahnını dilə gətirir:

Gedək gözəl Qarabağa,
Salam verək düzə-dağa
Nəzər salaq sağa-sola,
Görən Şuşa yerindəmi.

Dövrələmə vaxtilə hündür sal daşdan səd çəkilən Şuşaya daxil oluruq. Hava günəşlidir. Fərziyəyə görə Şuşanın havası büllur kimi saf, səfalı olduğu üçün onu

Şuşa – yəni şüşə adlandırmışlar. Bəzi mənbələrə görə  Şuşa – şiş qaya mənasını verir.

Həyat  möcüzələrlə  doludur. 2725 metr yüksəklikdə Kirs dağı qarşımızda dayanıb. Qırx pilləkən yolu isə Daşaltı çayına doğru səmtlənib.

Qurban Bayramov nəzərlərini yandırılmış Topxana meşəsinin yaxınlığındakı Daşaltından çəkmədən: - Şuşaya az qalıb. Əclaflar o vaxtlar Daşaltıda xaincəsinə əsgərlərimizi tələyə salıb qətlə  yetirdilər.

- Allah hamısına rəhmət eləsin.

Yolda tez-tez əsgər məntəqələrinə  rast gəlirik. Əsgərlərimizin üz-gözlərindən sevinc yağır.

Yadigar Əsgərova deyir: - Necə də saf uşaqlardır. Çevrilib arxa oturacaqda, sonra yaxınımda oturanlara baxıram. Alimlərimiz – Xuraman Hümmətova, Güldəniz Qocayeva, Hicran Hüseynova, Təranə Abdullayeva, Səltənət Əliyeva, Mehparə Axundova və başqa gənc qızlarımız  Şuşamızla görüşün intizarındaydılar. Mehparə xanım Şuşadandır. Şuşadakı evinin açarını da götürüb ki, bəlkə gedib evini görə, əgər uçurmayıblarsa.  Bizi sevindirən, bizə bu rahatlığı, əmin-amanlığı bəxş edən, qələbəmizi bizim taleyimizə yazan əsgərlərimizin hünəri, igidliyi deyildimi? Özlərini vətən uğrunda fəda edən, şəhidlik zirvəsinə ucalan mərd oğullarımız deyildimi?

Avtobus Şuşaya yaxınlaşır, sürətini azaldıb axır ki, qəlbimizdə gəzdirdiyimiz Şuşamıza daxil olur. Gözəl Şuşamıza. Avtobusdan düşüb heyran-heyran, acgözlüklə hər tərəfi süzürük. Xoş auralı Dilarə Adilgil sevincindən qollarını yana açıb Şuşanı qucaqlamaq istəyir. Şuşamız nələrə layiq görülməyib və gözəl fəxri adlarla dəyərləndirilib. Qafqazın sənəd məbədi Azərbaycanın musiqi beşiyi, Zaqafqaziyanın konservatoriyası.

Dilarə Adilgil Şuşanı şeirlə salamlayır:

Torpağından, daşından,
Alovundan, közündən,
İşğal bitdi sözündən,
Ulu Cıdır düzündən,

Şuşa, ətrin duyulurmu?

Neçə gün idi ki, havalar soyuq keçsə də, bu gün isti idi. Nə soyuqluq vardı, nə də külək. Günəşli bir gün idi.

Aytən Rüstəmzadə Dilarə xanımın söylədiyi şeirə şeirlə cavab verir:

Həqiqət var, biz də varıq,
Artıq bu dünyaya carıq.
Ordumuza minnətdarıq,
Şükür, Şuşa yerindədir.

Baş komandan qılıb çarə,
Düşmən olub parə-parə.
Gözün aydın, ay ellərim,
Şükür Şuşa yerindədir.

Düşmən qədim, tarixi abidələri, məscidlərimizi uçursalar da Prezidentimiz demişkən, Şuşanı, bütün işğal olunmuş ərazilərimizi əvvəlki gözəlliyinə qaytaracağıq.

Rahatlanıb başmaq seyrinə çıxırıq. Burada, əziz Şuşamızda qızğın iş gedir. Şuşanın abadlıq işlərinə baxdıqca Anar müəllimin «Ağ qoç, qara qoç» əsəri yadıma düşdü. 2004-cü ildə oxumuşdum bu əsəri. Anar müəllimin uzaqgörənliyinə, bu gün Şuşada heyrətlənməmək mümkün deyil. Əsərdə «Məlikməmməd» nağılından epiqraf verilib. «O vaxt döyüşə-döyüşə iki qoç gələcək. Biri ağ, biri qara. Ağ qoç qara qoçu qovacaq. Onda atıl min ağ qoçun belinə. Ağ qoçun belinə minən kimi işıqlı dünyaya çıxacaqsan. Qara qoça minsən qaranlıq dünyaya düşəcəksən». Əgər Məlikməmməd ağ qoçla işıqlı dünyaya çıxmışsa, bizim igid əsgərlərimiz Şuşaya – o alınmaz qalaya dırnaqlarını daşlara keçirə-keçirə, dıırmaşa-dırmaşa daxil olmuş, düşməni bir nəfər kimi məhv etmişlərdi. Bəs sonda? Anar müəllimin əsərində Şuşa azadlığa çıxandan sonra ölkəmizin peşəkar telejurnalisti kimi tanınan Məlik Məmmədlinin mühəndis oğlu Beyrəyin Şuşamızdakı abadlıq işlərinə, Cıdır düzündən Topxana meşəsinə çəkilən

funikulyorun qurulmasına rəhbərliyindən bəhs edilir. Beyrək Şuşadan atasına telefonla gördüyü işlərdən məlumat verir. Cıdır düzündən, Ərimgəldidən, Topxana meşəsindən, İsa bulağından, Səkili bulağın yanında ucaldılmış beşulduzlu otellərdən, hər ilin payızında keçirilən Üzeyir Hacıbəyli musiqi festivallarından, Cıdır düzündə, Qarabağ atlarının yarışından danışardı. Anar müəllim bu sətirləri yazarkən Şuşa işğal altındaydı və mən heç cürə inana bilmirdim ki, arzularımız çin olacaq. Əsəri ürək ağrısı ilə oxuyurdum və özümə gələ bilmirdim. Sən demə, Şuşamızı yad əllərdən separatçı, mənfur düşməndən qurtara bilərmişik. Prezidentimizin siyasəti, igid əsgərlərimizin qəhrəmanlıqları sayəsində indi biz azad olunmuş Şuşadayıq, Şuşanın müqəddəs yerlərini ziyarət edirik. Təzə tikilib təhvil verilmiş Bülbülün ev muzeyi, Bülbülün, Natəvanın, Üzeyirin büstləri, Gövhər ağa məscidi öz əvvəlki görkəminə qayıtdıqlarını, Natəvanın evinin bərpasına başlandığını görürük. Ürəyimiz fərəh hissi ilə çırpınır. Vaxtımız az olduğu üçün incə ruhlu, şairə Natəvanın 190 illik yubileyi münasibətilə elə onun büstünün qabağında sessiyaya başlayırıq. İnstitutun icraçı direktoru, gənc alim Mehman Həsənli konfransı açıq elan edir. Elmi katibimiz Aygün Bağırlı, professorlardan Mahirə Quliyeva, İslam Qəriblinin , Qurban Bayramovun çıxışları dinlənilir. Bir daha incə ruhlu xan qızı Natəvanla vidalaşıb Vaqifin məqbərəsini, Bülbülün ev muzeyini, Gövhər ağa məscidini, Şuşa qalasını, Gəncə qapısını gördükdən sonra Cıdır düzünə gedirik. Burda öz xidməti borcunu yerinə yetirən polislərimizlə rastlaşırıq. Qızlarımız sevinə-sevinə Şuşanın hər yerində olduğu kimi Cıdır düzünün şəkilini çəkirlər. Şair təbiətli Güldəniz Qocayeva öz əzəmətiylə seçilən Kirs dağına baxır.

- Gözəldir, elə deyilmi?

Hicran Hüseynova: - Bu yerlərin hər qarışı gözəldir – deyir.

Lap qayalığın qırağındakı daşlarının birinin üstündə otururam. Cıdır düzü biz qonaqları öz ağuşuna alıb. Aman allah, bu yaşıl düzə kimlər gəlib, kimlər gedib.

Əsgərlərimizin hamısının çöhrələrinə, qəlbinə təbəssüm qonub. Vüqarlı görkəmlərilə seçilirlər. Əsgərlərdən biri mənə yaxınlaşır, əlində nəsə var. Üz-gözündən təbəssüm yağa-yağa ovcundakıları mənə verir.

- Şuşanın kəklikotusudur. Görün necə ətri var. Doğrudan da kəklik otunun ətri adamı valeh edir.

- Çox sağ ol oğlum. – Şuşanın hər qarış torpağı bizə əzizdir. Şəhidlərimizin qanı tökülüb bu torpaqlara. - Onların düşmənlə əlbəyaxa döyüşünü xatırlayıram. Gözlərim yaşarır. Əsgərin də üzündən təbəssüm çəkilir.

- Onların ruhları həmişə buralarda – Şuşanın dumanlı dağlarında, Cıdır düzündə, Topxana meşəsində, İsa bulağında, hər yerində bizimlə dolaşır – deyirəm.